# Azərbaycanlı alim Türkiyədə "İlin gənc elm adamı" seçildi

Bu günlərdə qardaş ölkədən gələn xoş xəbər hamımızı sevindirdi. Türkiyənin nüfuzlu Boğaziçi Universitetinin Fizika departamentinin azərbaycanlı əməkdaşı, fizika elmləri namizədi İlmar Qəhrəmanov Türkiyənin mötəbər Bilim Akademiyası tərəfindən "Gənc elm adamı" (BAGEP) mükafatına layiq görülüb.



Alim barəsində internet resurslarında axtarışlar apardıq. İlk qısa sorğu öz bəhrəsini verdi: adıçəkilən gənc alim 2003-cü ildə ali məktəbə daxil olarkən ən yüksək bal topladığına görə Prezident təqaüdünə layiq görülmüşdü. Doğrudan da həqiqi elmdə, təhsildə məqsədə çatmaq üçün təsadüflər, kiminsə himayədarlığı, kəsə yollar yoxdur. Qazanılan hər bir uğur sərrast idraka, ağır zəhmətə, yuxusuz gecələrə, usanılmaz təcrübələrə bağlıdır.

O da məhz həmin yolu seçdi. Başqa cür ola da bilməzdi, çünki gözünü açandan evdə, ailədə hamını çalışqan, halal əməklə məşğul olan, Vətənə, xalqa gərəkli vətəndaş kimi görüb. Qarabağ müharibələri qazisi olan atasından isə iki möhtəşəm məqamı əxz edib - vətənpərvərlik və fizika sevgisi. Uzun illər Sərhəd Qoşunlarının aviasiya xidmətində hərbi xidmətdə olan polkovnik Balaxan Qəhrəmanov qırıcı təyyarəçidir. Savaş zamanı düşmənin torpaqlarımızda qazdığı səngərlər üzərində çoxsaylı uçuşlar həyata keçirib, hədəfləri zərərsizləşdirib, təltifləri var. Şəxsi kitabxanasındakı fizikaya aid kitablar və digər mənbələr övladının da bu elmə meyil salması ilə nəticələnib.

İlmar da səma şahininin şərəfli yolunu davam etdirməyi qərara alıb, amma elmdə - qələmlə, zehinlə, kəşflərlə... Əslən Salyan rayonundan olsalar da, valideynlərinin xidməti işi ilə əlaqədar 1985-ci ildə Hacıqabulda doğulub. Orta təhsilini Bakıda 289 saylı "Zəngi" liseyində alıb. Böyük müvəffəqiyyətlə Bakı Dövlət Universitetinin Fizika fakültəsinə daxil olub. Bilik və bacarığına görə dünyanın daha nüfuzlu tədris-tədqiqat ocaqlarının qapıları üzünə açılıb. 2005-2009-cu illərdə Moskva Milli Tədqiqat və Texnologiya Universitetində MISiS bakalavr, daha sonra maqistratura (fizika) üzrə təhsilini davam etdirib. 2012-ci ildə Almaniyanın Hamburq Universitetnin Riyaziyyat fakültəsində riyazi fizika üzrə maqistr dərəcəsinə yiyələnib. 2012-2015-ci illərdə Berlin Humboldt Universitetində PhD (aspirantura) oxuyaraq, orada nəzəri fizika üzrə elmlər namizədi elmi dərəcəsi alıb. 2015-2017-ci illərdə Maks Plank Cəmiyyətinin Albert Eynşteyn adına Qravitasiya Fizikası İnstitutunun (Potsdam, Almaniya) doktorantı olub. 2019-cu ilə qədər İstanbulda Mimar Sinan Güzel Sanatlar Universitetinin Fizika fakültəsində çalışıb. Son beş ildə isə Boğaziçi Universiteti Fizika bölümünün əməkdaşıdır. Həmçinin Bakıda Xəzər Universitetində Riyaziyyat departamentində fəaliyyət göstərən "Riyaziyyat və onun tətbiqləri" elmi-tədqiqat mərkəzinin üzvüdür.

İlmar Balaxan oğlu Qəhrəmanov riyazi və nəzəri fizikanın yüksək enerji fizikası, supersimmetriya, SİM nəzəriyyəsi və inteqrallanan sistemlər kimi sahələr üzrə tanınmış mütəxəssisdir.

Türkiyə Cümhuriyyətinin Bilim Akademiyasının Ödül komitəsi isə ölkədə fəaliyyət göstərən gənc elm adamları arasından ən parlaq və beynəlxalq nüfuza sahib olanları, eləcə də gələcək fəaliyyətində uğur qazanacağına inamlıları seçməyi hədəfləyir. Qaliblərə elmi tədqiqatlarında kömək məqsədilə təqaüd və digər pul mükafatlarının verilməsi də nəzərdə tutulur.

***Qurban MƏMMƏDOV***

Azərbaycan.- 2024.- 28 may, № 111.- S.19.